# Ali təhsil, yoxsa həyat universiteti?

*Yazıçı və şairlərin formalaşmasında təhsilin rolu əvəzolunmazdır*

Yazıçı və şairlərin formalaşmasında təhsilin rolu əslində, həmişə mübahisə mövzusu olub. "Yazmaq üçün istedad və müşahidə qabiliyyəti yetərlidir" - deyənlər "Mənim universitetlərim"i yazan böyük Maksim Qorkinin heç bir ali təhsil almamasını nümunə gətirirlər. Ali təhsilin verdiyi nəzəriyyənin həm nəsr, həm də poeziyada təcrübə, dünyagörüşü və intellekt olduğunu söyləyənlər isə elmə yaradıcılığın harmoniyasından daha gözəl əsərlər yarana bildiyini iddia edirlər.

"Kaspi" bu dəfəki "Müzakirə"sində "Yazarların formalaşmasında təhsilin rolu nədir?" sualına aydınlıq gətirməyə çalışıb.



Bədirxan Əhmədov



Nəriman Əbdülrəhmanlı



Vaqif Yusifli



Etimad Başkeçid

## HƏM MÜHİT, HƏM TƏHSİL

**Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədovun** fikrincə, yazarın formalaşmasında həm mühitin, həm də təhsilin böyük rolu var. Bu amillərdən birinin rolunu yüksəldib, digərini azaltmaq olmaz: "Yazar təhsilsiz ola bilər, ancaq onun intellekti və ədəbi təhsili olsa daha yaxşı olar. Bu mənada yazarın formalaşması üçün mühitin, təhsilin, dünyagörüşünün eyni dərəcədə rolu var. Müasir bədii mətni intellektsiz, dünyagörüşsüz təsəvvür etmək mümkün deyil. 21-ci əsrdə elə mətnlər özünə yer alır və oxucular arasında geniş yayılır ki, o mətnlərdə yazarın özünün şəxsi intellekti, dünyagörüşü öz əksini tapmış olsun. Əgər yazar dünyagörüşü və intellekt etibarı ilə 19-cu əsr və ya 20-ci əsrin əvvəllərində qalıbsa, o, bugünkü mətnlə oxucunu təəccübləndirə və onu ələ ala bilməz. Bu mənada təhsilin də böyük rolu var". Filoloq hesab edir ki, 50-60-cı illərdə Azərbaycandan Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alan yazarların əksəriyyəti cəmiyyətdə daha yaxşı mövqe qazanıblar. Onlar daha sanballı əsərlərlə ortaya çıxıblar: "Əgər bunun bir səbəbi Moskva ədəbi mühiti idisə, digər səbəbi bu ədəbi mühiti formalaşdıran institutun özü idi. Çünki təhsil ocağının özündə həmin ədəbi mühit formalaşmışdı. Orada təhsil alan yazıçılarla Azərbaycandakı yazıçıları müqayisə etmiş olsaq onların daha öndə getmiş olduğunu görərik. Məsələn, Bakıda yaşayıb-yaradan, ədəbi təhsil alan, yüksək universitet bitirən yazarlarla əyalətdə yaşayıb-yaradan yazıçılar arasında da müəyyən fərqlər var. Bütün bunlar onu göstərir ki, yazarın bədii mətninin formalaşması üçün onun yüksək bir universitetdə təhsil alması şərtlərdən biridir". Filoloq hesab edir ki, bu gün həyatdan gələn yazıçı olmaq mümkün deyil. Çünki hamı Maksim Qorki ola bilməz: "21-ci əsr intellekt əsridir. Bu, tamamilə yeni düşüncə, təfəkkür və dünyagörüşü tələb edir. Yoxsa sən oxucunu ələ ala bilməzsən. Bu gün təkcə fantaziya ilə yazıçı olmaq olmaz. Bu günün yazıçıları məsələn, Kamal Abdulla kimi yazar ola bilirlərmi? Onun "Yarımçıq əlyazma"sı kimi əsər yaza bilirlərmi? Kamal Abdulla ədəbiyyata həyatla bərabər elmdən gəldi. Bu gün dünyada ən məşhur romanlar intellekti olan əsərlərdir. İndi yeni mərhələdir və burada təhsil əsas şərtlərdən biridir. Əlbəttə, mühit və istedad da əsasdır. Yaxşı yazıçı olmaq üçün mühitlə, dünyagörüşü ilə bərabər təhsili və intellekti də əsas rol oynayır".

## HƏYAT MƏKTƏBİ

**Nasir Nəriman Əbdülrəhmanlı** da yazarlar üçün təhsili vacib amil hesab edir. Onun fikrincə, təhsilsiz adamın ədəbiyyatla məşğul olması o qədər real görünmür: "Təbii ki, yazarı təhsildən çox həyat, onun verdiyi bilgilər formalaşdırır. Sən hər hansı təhsil ocağını bitirməyə bilərsən, ancaq həyat məktəbini keçməlisən. Çünki insanın ədəbi taleyi həyat məktəbindən çox asılıdır". N.Əbdülrəhmanlı hesab edir ki, mütaliə yazan adamı yalnız zənginləşdirə və ədəbi istiqamət verə, oxuduqlarını əxz edib, yazılanları daha yazmamaq üçün hazırlaya bilər: "Təbii ki, yazarın yaradıcılığına mütaliənin təsiri var, ancaq oxuduqları, əxz etdikləri onun yaradıcılığında özünü açıq şəkildə göstərir. Dilinin, üslubunun formalaşmasında yardımçı rol oynaya bilir. Məsələn, tarixi mövzularda yazanda böyük bir hazırlıq mərhələsi keçmək, mənbələri, ədəbiyyatı oxumaq lazımdır. Oxuduqların sənin ədəbi dünyanın, hisslərinin, dünyagörüşünün inkişafına kömək etməlidir. Ondan artıq şəkildə götürməyi mən düzgün hesab etmirəm". Nasirin fikrincə, fantaziya və təhsil bütün dövrlərdə lazımdır. Belə ki, nəsrlə məşğul olan bir insan mütləq ədəbi hazırlıq dövrü keçməlidir: "Bunsuz nəsrlə məşğul olmaq mümkün deyil. Poeziyada təhsil o qədər rol oynamır. Poeziya ilahi koddur. Nəsr qədər həddən artıq hazırlıq da tələb etmir". N.Əbdülrəhmanlının sözlərinə görə, sovet dövründə Maksim Qorki adına Ədəbiyyat İnstitutuna yalnız səriştəsi olan adamları göndərirdilər və onlar da bu təhsil ocağında öz yaradıcılıq işlərini təqdim etdirirdilər: "Hesab etmirəm ki, bunların hamısı düzgün seçim idi. 60-cı illərdən üzü bəri bəlkə də 50-ə yaxın yazarımız həmin institutu bitirib. Ancaq onların çox az hissəsi ədəbiyyatda qaldı. Çünki onların çoxu institutda oxuyanda böyük ədəbiyyatın arxasınca gedə bilmədilər". Nasir hesab edir ki, hər bir yazar ali təhsillə bərabər geniş mütaliə, dünyagörüşünə malik olmalı, onun dünyaya öz baxışı və üslubu formalaşmalıdır. Ali təhsili də diplom mənasında başa düşmək lazım deyil: "Təhsil insanın daxilən, hissən formalaşması mənasında başa düşülməlidir".

## "TƏHSİL ONA GÖRƏ VACİB DEYİL Kİ..."

"Mən universitetin filologiya fakültəsini bitirmişəm. Tənqidçi və ədəbiyyatşünasam. Təhsil olmadan təbii ki, bu səviyyəyə gəlib çata bilməzdim"- deyən **Vaqif Yusiflinin** fikrincə, ümumiyyətlə, bütün ziyalılar üçün təhsil almaq vacib və zəruridir. "Xüsusən filoloji təhsil alanlar elm sahəsinə gələrkən təhsilin böyük rolu olur. Müəyyən elmi işlər əldə olunanda, tutaq ki, ədəbiyyatçı bir yazıçının, şairin yaradıcılığından və ya ədəbiyyat tarixindən söhbət açanda bunun üçün təhsilli olması vacibdir. Hər bir elm sahəsi üçün təhsil mütləqdir. Amma şair, yazıçı üçün təhsillə yanaşı, istedad da lazımdır. Şair filologiya fakültəsini bitirsə, daha yaxşı olar. O, şeirin qayda-qanunlarını, ədəbiyyatın xüsusiyyətlərini bilsə, bu, onun xeyrinə olar". İstedad üçün diplomun lazım olmadığını bildirən V.Yusifli şair Məmməd Arazın ixtisasca coğrafiyaçı olduğunu xatırlayır. Belə ki, M.Araz Azərbaycan Pedaqoji İnstitutunda oxuyarkən ədəbiyyat dərnəyinin rəhbəri olan İsmayıl Şıxlıya yaxınlaşıb: "Mən coğrafiya fakültəsində oxuyuram, bu dərnəyə gələ bilərəmmi?"- deyə soruşub. İsmayıl Şıxlı "Şairlik üçün diplom lazım deyil" - deyə gəncə razılıq verib: "Şair və yazıçıların müəyyən qismi heç də ədəbiyyat təhsili almayıblar. Sadəcə, ilham, ədəbiyyata bələdlik onların yaradıcılığında rol oynayıb. Həyat özü yazar üçün universitetdir. Böyük şairimiz Rəsul Rza ali təhsil almayıb. Həmçinin Səməd Vurğun da təhsilini yarımçıq oxuyub. Ancaq mütaliə və həyat onların şairliyində mühüm rol oynayıb. Həyatın özü insanı dağa-daşa". V.Yusiflinin fikrincə, institut təhsili olmadan da yaxşı yazıçı və şair olmaq mümkündür. Belə ki, Mirzə Ələkbər Sabirin də ali təhsili olmayıb, amma o, Azərbaycanın böyük şairidir: "Müasir dövrdə ədəbiyyat adamı üçün də təhsil vacibdir. Əvvəla, diplom olmadan səni işə götürmürlər. Fantaziyaya gəlincə, bədii təxəyyül varsa, bu, yaradıcılıqda əsas rol oynayır. Əliağa Vahid dördsinifli mollaxana məktəbini yarıda qoyub dülgər, tütün fabrikində köməkçi işləyib. Ancaq şəxsi mütaliəsi sayəsində görün, nə boyda şairdir. Hətta, o, fars dilini də yaxşı bilmirdi. Ancaq Nizami, Füzuli, Xəqanidən olan tərcümələrin ən yaxşı hissəsi Vahidə aiddir. İndi belə adamlar azdır ki, zəhmətə qatlaşsın və təhsil almadan böyük şair olsunlar". V.Yusifli müasir dövr üçün təhsili vacib hesab edir: "Təhsil ona görə vacib deyil ki, sən filologiyanı bitirib mütləq şair olasan. Və ya jurnalistikanı bitirib jurnalist olasan. Müasir dövrdə təhsili olan jurnalistlər var ki, onlar heç jurnalistika ilə məşğul ola bilmirlər. Çünki istedad amili burada əsas rol oynayır. Həmçinin filologiya fakültəsini bitirənlərin də əksəriyyəti heç də həmişə alim, şair, yazıçı olmurlar. Aralarında kənd yerlərində müəllim işləyən və ya başqa sahələrə üz tutanlar var".

## ŞAİRLƏR TƏHSİLSİZ ÖTÜŞƏ BİLƏR

"Ali təhsil" deyəndə biz nəyi nəzərdə tuturuq? Şəxsən mən nə qədər desən ali təhsilli, qırmızı diplomlu, amma bisavad adamlar tanıyıram" - deyən yazıçı **Etimad Başkeçid** hesab edir ki, böyük yazıçıların mütləq əksəriyyəti yaxşı təhsil görmüş insanlardır: "Amma, tutalım, Çexov orta məktəbi sinifdə qala-qala, birtəhər bitirmişdi, baxmayaraq ki, sonradan həkimlik fakültəsində oxudu. Qorki ali təhsil ala bilməmişdi və s. Belə yazıçılar kifayət qədərdir. Lakin bunlar, əsasən, istisna təşkil edən nümunələrdir. İstisna isə qaydanı təsbit edir". Yazıçının fikrincə, müasir zamanda geniş, sistemli humanitar təhsil almadan yaxşı mətn yazmaq xeyli müşkül məsələdir: "Bəlkə də, şairlər birtəhər təhsilsiz ötüşə bilər, amma yazıçı yaxşı təhsil alsa yaxşıdır. Bunsuz onun yazdıqları şifahi poetik ənənədən o yana keçə bilməyəcək və nəticə etibarilə marginal, pafoslu, klişe priyomlarla dolub-daşan mətnlər ərsəyə gətirəcək. Necə ki, indi bizim ədəbi mühitdə belə əsərlərin əlindən tərpənmək olmur".

**Təranə Məhərrəmova**